AZƏRBAYCAN XƏBƏRLƏRİ

Elektrik sayğacları gec sıfırlanır: abonentlər zərərə düşəcəklərini deyir

Noyabr 09, 2026



Elektrik sayğacı

Azərbaycanda bəzi abonentlər elektrik enerjisi ödənişlərində zərərə düşəcəklərindən şikayətlənirlər.

Ölkədə əhali abonentləri üçün pilləli tariflər tətbiq olunur:

- 0 – 200 kVt·saat: 1 kVt·saat üçün 8.4 qəpik
- 200 – 300 kVt·saat: 1 kVt·saat üçün 10 qəpik
- 300 kVt·saatdan artıq: 1 kVt·saat üçün 15 qəpik

Abonentlər deyirlər ki, bu limitlər hər ayın 1-də yenilənməlidir. **"Lakin ayın ilk günlərində sıfırlanma olmasa, biz işığın pulunu ən yüksək tariflə, yəni 15 qəpikdən ödəməli olacağıq. Məsələn, artıq noyabrın 9-dur, amma bizim sayğac hələ də sıfırlanmayıb"**, – Abşeron sakinlərindən biri söyləyib.

Şikayətçilərin sözlərinə görə, "Azərişıq" ASC əməkdaşlarının bu problemi bilərəkdən, yoxsa bilməyərəkdən yaratdıqları onlara aydın deyil. **"Fakt ondadır ki, bundan biz ziyan çəkə bilərik"**, – adının çəkilməsini istəməyən başqa bir sakin bildirib.

Şikayətlərə, hələlik, "Azərişıq" ASC-dən münasibət öyrənmək mümkün olmayıb.

Ekspertlər isə hesab edirlər ki, bu problem ancaq mexaniki sayğaclarda yarana bilər.

Onlar vurğulayırlar ki, "Smart" (kartlı) sayğaclarda hər ayın 1-də mərkəzi sistem limiti avtomatik yeniləyir. Karta pul yükləyib sayğaca daxil etdikdə yeni ayın güzəştli tarifi işə düşür.

Mexaniki və elektron (kodlu) sayğaclarda isə "Azərişıq" ASC əməkdaşları aylıq oxunma aparıb faktura çıxardıqdan sonra növbəti ayın limiti aktivləşir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur